# CCS Mortar ST60

*Yüksək müqavimətli konstruktiv təmir məhlulu*

**Məhsul haqqında:**

**CCS Mortar ST60** sement əsaslı, birkomponentli, xüsusi polimerlərlə və liflə möhkəmləndirilmiş, tiksotropik təmir məhluludur.

Ekoloji kodu №: 04.613/3b

EN 1504-3 standartına / R4 sinfinə cavab verir

**Tətbiq sahələri:**

• Yüksək möhkəmliyə malik beton daşıyıcı elementlərin təmirində

• Dərzlərin paxlanmasında (plintuslarda),

• Döşəmə beton təmirində,

• Dəniz təklilərin təmirində,

• Betonun sulfat və xlorun təsirindən qorunması üçün,

• Çiroz (tie-rod) dəliklərin və boşluqların doldurulmasında istifadə edilir.

**Üstünlükləri:**

• Yalnız su ilə qarışır, tətbiq etmək asandır.

• Beton və armatura yüksək yapışma təmin edir.

• Yüksək təzyiq müqavimətinə malikdir.

• Yüksək tiksotropik (sürüşməyən) xassəyə malikdir.

• Su keçirməzdir.

• Donma-ərimə dövrlərinə davamlıdır.

• Astar tələb etmir.

• Yığılıb büzülmür, tez müqavimət qazanır.

• Xlor, sulfat və yağlara qarşı davamlıdır.

**Səth təmiri:**

Təmir ediləcək səthlər möhkəm olmalı, toz və kirdən təmizlənməlidir. 40mm-dən yuxarı qalın təmirlərdə tətbiq 40mm-lik mərhələlərlə aparılmalıdır. Həddindən artıq yaş və gölməçəli səthlərdə öncəliklə su səthdən çıxarılmalıdır və ya drenaj edilməlidir. Quru səthlər bir az nəmləndirilməlidir.

**Texniki məlumat:**

Materialın strukturu: Mineral dolğular, polimer və liflə möhkəmləndirilmiş xüsusi məhlul.

Rəng : Boz

Yükə qarşı davamlılığı : (TS EN 196)

1-ci gün : 20 N/mm²

7-ci gün : 50 N/ mm²

28-ci gün : 60 N/ mm²

Əyilməyə qarşı davamlılığı (28 gün) : (TSEN196) 7N/ mm²

Yapışma gücü : (TS EN 1542)

(Betona) 28-ci gün : 2 N/mm²

Karbonatlaşmaya qarşı müqavimət : Dəq. ≥ control concrete MC 0.45

Elastiklik Modulu (28-ci gün) : 20.000 N/ mm²

Tətbiq Qalınlığı: min.10 mm – maks.40 mm

Tətbiq edilən səthin temperaturu : +5˚C +30˚C

Servis temperaturu : (-20˚C) +400˚C

İstifadə müddəti : (+20˚C) 30 dəqiqə

Səthin üzərində gəzmə müddəti : (+20˚C) 24 saat

Tam polimerləşmə :(+20˚C) 28 gün

Qeyd: Yuxarıda göstərilmiş qiymətlər +23˚C temperatur və 50% nisbi rütubət olan mühit üçün etibarlıdır. Temperatur artdıqca müddət qısalır, aşağı düşdükcə isə artır.

**Qarışdırma:**

Qablaşdırmada təsvir olunan müvafiq miqdarda suyu təmiz qarışdırıcı qaba tökün. **CCS Mortar ST60** torbasını açılın və yavaş-yavaş suya əlavə edin, 400-600 sürətli qarışdırıcı ilə təxminən 4 dəqiqə homojen qarışıq əldə olunana qədər qarışdırın. Materialın içərisində topaq qalmamalıdır. Material 30 saniyə dincəldikdən sonra yenidən qarışdıraraq tətbiq üçün hazır vəziyyətə gətirin.

1 kq **CCS Mortar ST60** üçün təxminən 160 q su istifadə edilməlidir. 25 kq-lıq kisəyə təxminən 4 litr su əlavə edilməlidir.

Qarışığın sıxlığı: 2,25 kq/lt.

**Tətbiq qaydaları:**

Hazırlanmış məhlul qalınlığı maksimum 4 sm olaraq 1 dəfəyə tətbiq edilir. Tətbiq edilərkən, qəlibin içərisində hava boşluğu olmamasına diqqət yetirilməlidir. Buna görə də material mala və ya polad çubuqla (şişləmə ilə) qəlibdəki boşluqlara doldurulur. Vibrator istifadə edilməməlidir. Qəliblər 24 saatdan əvvəl götürülməməli, həddindən artıq külək, günəşli və yüksək temperatur zamanı materialın səthi nəm kisələr və ya tez hidrotasiyanını (buxarlanmanın) qarşısını alan brezent, "curing" materialları ilə qorunmalıdır. Qurutma zamanı məhlulun səthi sulanmamalıdır. Məhlul +20 °C-də 30 dəqiqə ərzində istifadə edilməlidir. Temperatur yüksəldikdə bu müddət azalır. Material qarışdırıldıqdan dərhal sonra tətbiq edilməlidir.

**Qablaşdırma:**

25 kq-lıq polietilenlə möhkəmləndirilmiş kraft torbalar.

**Sərfiyyat:**

1 sm qalınlıq əldə etmək üçün 20 kq/m²

**Saxlama müddəti:**

Material açılmamış orijinal qablarda, quru və sərin otaqda saxlanılmalıdır. Qısamüddətli saxlanma zamanı material üst-üstə 3 paletdən çox olmayaraq yığılmalı, göndərilmə isə 1-ci daxil olan kisə 1-ci çıxar prinsipinə uyğun yerinə yetirilməlidir. Uzun müddətli saxlama üçün paletlər üst-üstə yığılmamalıdır.

Müvafiq şərtlərə əməl olunduğu halda saxlanma müddəti 12 ay təşkil edir.

**Sağlıq və təhlükəsizlik:**

Məhsulla bağlı Avropa Birliyinin direktivlərinə uyğun olaraq hazırlanmış Təhlükəsizlik Məlumat Vərəqinə (SDS) əməl edin.

**CCS.az LLC**
**Adress:** Sabail district, Badamdar highway 18, Baku, Azerbaijan
**Phone:** +994 12 567 97 09 / 10
**Web:** www.ccs.az
**E-mail:** info@ccs.az